Adımız məfkurəmizdir

15-28 mart 2022-ci il

Türküstan

www.turkustan.az

# Tarixdə və bu gün Azərbaycan Türk qadını



Aydın Qasımlı

Filologiya üzrə fəlsəfə doktoru

Bizim yazar

(əvvəli ötən sayımızda)

***Bütün bu məsələlərin geniş şərhi mövzumuza aid olmadığından biz onları ümumi şəkildə xülasə etməklə kifayətlənir və əsasən, altıncı mərhələnin, yəni ikinci Müstəqillik dövrünün üzərində dayanmağı məqsədəuyğun sayırıq.***

***Azərbaycan Qadını tarix boyu millətin əsil müəllimi vəzifəsini yerinə yetirib. Onlar tarixən dilimizin qoruyucusu, yaşadıcısı, inkişaf etdirəni, öyrədicisi missiyasını da yerinə yetiriblər. Qadınlarımız da kişilərimiz kimi olsaydı, indi saf ana dilimiz də olmazdı. Bu gün belə Azərbaycan anası ilk və ən şərəfli tərbiyəçi mövqeyini qoruyub saxlamaqdadır.***

***İnsan ilk xeyirxahlıq duyğularını Ana qucağında qazanır. Yıpranan, itən gözəlliklər Ana qucağında yenidən qazanılır. Vətənin oğul və qızları ilk Vətən məhəbbətini Analardan alır. Bu gün artıq Azərbaycan Qadını ailə, millət və bəşəriyyət üçün çalışan insandır.***

Bugünkü cəmiyyətimizdə fərdi olaraq kişilərə bu və ya digər dərəcədə uduzan Qadınlarımız kollektiv olaraq liderliyi ələ almışlar. Qadınlarımız artıq həm ailədə, həm cəmiyyətdə liderlik etməkdədirlər. Belə ki, bu gün ali məktəb tələbələrinin (əlimizdə tam statistik məlumat olmasa da) 50%-dən çoxunu, orta məktəblərimizdə müəllim və tərbiyəçi olaraq çalışanların, bəlkə də 80%-ini, ali məktəb və elmi tədqiqat müəssisələrində çalışanların 50%-ini, tibb müəssisələrində çalışanların, bəlkə də 75%-ini, mədəniyyət sahəsində çalışanların böyük əksəriyyətini, kütləvi informasiya sahəsində çalışanların yarısını, ticarət müəssisələrində çalışanların 80%-ini, kənd təsərrüfatında çalışanların 60%-dən çoxunu, mövcud fabrik və zavodlarda çalışanların yarısını, qeyri-hökumət təşkilatlarında çalışanların yarıdan çoxunu Qadınlar təşkil edir.

Bu gün Azərbaycan qadını müxtəlif obyektiv və subyektiv səbəblərdən dolayı, yalnız Milli Məclisdə, Nazirlər kabinetində, İcra aparatlarında, Bələdiyyələrdə, Məhkəmə hüquq sistemində, Neft sənayesində və s. bu kimi işlərdə kişilərə uduzurlar ki, bu da onların özlərindən asılı olmayan səbəblərlə bağlıdır.

Bu gün dünyanın bir çox ölkələrində, o cümlədən də Azərbaycanın Anayasasında Qadınla kişinin eyni hüquqlara malik olmasına baxmayaraq, Qadınlarımız siyasi proseslərə az qoşulur, millət vəkili, bələdiyyə üzvü seçilmək üçün az maraq göstərirlər. Bunun da obyektiv və subyektiv səbəbləri vardır. Bizcə, ən əsas səbəb keçirilən seçkilərin qeyri-demokratikliyində, vəzifəyə təyinatların bilik və qabiliyyətə görə deyil, münasibətlərə görə müəyyənləşməsində və müstəqilliyə təzəcə qovuşmuş olan bir ölkənin təlim-tədris sisteminin yetərli olmamasındadır. Həmçinin bütün Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ailədə, məktəbdə və bütövlükdə cəmiyyətdə oğlanlara Qızlardan fərqli gələcək üçün yollar göstərilməsidir. Bu yollar oğlanları daha çox siyasətə və rəhbərliyə, qızları isə peşəyə yönləndirir. Bununla da oğlanlar gələcəkdə siyasi məsələlərlə daha çox maraqlanır, siyasətə aktiv olaraq qoşulurlar. Oğlanlar üçün ailə və cəmiyyət tərəfindən verilən müəyyən sərbəstliklərdən Qızlarımız məhrum olduqlarından onlar gənc yaşlarından siyasi proseslərə az qoşulurlar. Beləliklə də, Qadınlar və xüsusilə Qızlar bu və ya digər dərəcədə siyasətlə az



məşğul olur, siyasi partiyalarda təmsil olunmaqdan daha çox başqaları tərəfindən bəyənilməyə üstünlük verir, daxili və xarici siyasətdən daha çox qadın modalarına maraq göstərir, siyasi məsələləri müzakirə etməkdənsə dedi-qoduya, qeybətə üstünlük verir. Beləliklə də, siyasi savadsızlıqları üzündən siyasi mübahisələrə az qoşulur və bir növ özləri-özlərini siyasətdən təcrid etmiş olurlar. Bu iş bölgələrimizdə qadınların 48% təşkil etməsinə baxmayaraq, mərkəzə nisbətən daha qabarıq görünür. Lakin unutmamalıyıq ki, daha yaxşı, daha dürüst irəliləyə biləcəyimiz yol müqəddəs Qadınlarımızı kişilərə bərabər tutmaq, həyatı onlarla birlikdə yürütmək, onların elmi, əxlaqi, ictimai, iqtisadi, mədəni həyatdakı başarılarından yararlanmaqla mümkündür. Dahi Cavidin söylədiyi kimi:

**«Qadın gülərsə, məişətimiz güləcək,**
**Sürüklənən bəşəriyyət Qadınla yüksələcək».**

Müdriklər söyləyiblər ki: «Qadın müti, hüquqsuz olarsa, bəşər alçalar». Unutmamalıyıq ki, Azərbaycan Qadınının xalqımıza bəxş etdiyi dəyərlər onları nəinki vəzifələrə, həm də omuzlar üzərində göylərə yüksəlməyə layiq etmişdir. Bu gün dünyada heç bir millətin Qadını «Mən Azərbaycan Qadınından daha çox savadlıyam, ondan daha çox çalışmışam və çalışıram, millətimi qurtuluşa və zəfərə çatdırmaqda Azərbaycan Qadınından daha çox əziyyət çəkmişəm» - deyə bilməz. Bunları heç Azərbaycan kişiləri də deyə bilməzlər.

***Azərbaycanın ictimai təməli Qadın və kişidən ibarət olduğuna görə bütün ictimai məsələlər birlikdə həll edilməli, bütün vəzifələr bərabər bölünməlidir. Buna Azərbaycan Qadınının savadı, elmi, təcrübəsi və potensial gücü çatar. Unudulmamalıdır ki, mədəniyyətin daşıyıcısı kişidən çox Qadındır. Hər hansı bir cəmiyyətin gələcəyə doğru inkişafında Qadınla kişi bərabər yürüməzsə, o cəmiyyətin tərəqqisi mümkün deyil. Millət ailədən yaranır. Sağlam olmayan ailələrdən təşəkkül tapan millət sağlam millət ola bilməz. Ailə isə öz vəzifəsini anlamayan kişi və Qadından ibarət olarsa, o ailə sağlam ola bilməz. Övladlar üzərində isə Ananın təsiri atanınkından qat-qat artıqdır.***

Müstəqilliyimizin indiki ikinci mərhələsində artıq «Qadın və kişi» məsələsi deyil, insan amili əsasdır. İndi artıq Qadınlarımızın təşəbbüsü, liderliyi ələ alma əsridir. Çünki cəmiyyətimizin indiki anında savadlı Qadınlarımız kişilərdən çoxdur və onların uğur qazana biləcəkləri mənbələr kişilərinkindən qat-qat artıqdır. Bu gün Azərbaycan Qadını artıq şəxsiyyətləşmiş bir Varlıqdır. Onlar düşüncəli, savadlı fərdlər olmaqla yanaşı, cəmiyyətdə müəyyən yer tutaraq öz ictimai rollarını yerinə yetirməkdədirlər.

Müasir psixoloqlar şəxsiyyətin üç vacib psixoloji xarakteristikasını müəyyənləşdirmişlər ki, bizcə, bunların ikisi, yəni şəxsiyyətin sabitliyi və şəxsiyyətin tamlığı müasir Azərbaycan Qadınında kişilərdən daha üstündür. Qalır üçüncü, yəni şəxsiyyətin fəallığı. Qadınlarımız lider olmaqda məhz fəallıqda kişilərə uduzurlar.

Qeyd edildiyi kimi, Azərbaycan Qadınında şəxsiyyətin sabitliyi və tamlığı kişilərdən üstün olduğundan biz daha çox şəxsiyyəti liderliyə yüksəldən mühüm amil olan fəallıqdan bəhs etməyi məqsədə uyğun hesab edirik.

Şəxsiyyət öz fəallığını, fəaliyyətdə olduqda və ətraf aləmlə qarşılıqlı əlaqədə olduğu prosesdə hiss edir. Fəallığın mənbəyi onun tələbatlarıdır. İnsanın tələbatları isə tərbiyə prosesində formalaşır və siyasi proseslərə qoşulduqca o tələbatlar ictimai və bəşəri xarakter daşıyır. Siyasi tələbat şəxsiyyətin fəallıq mənbəyinə çevrilərək onun davranışını başqa istiqamətə - rəhbərliyə, liderliyə yönəldir.

Liderlik ictimai tələbat olduğundan o, ictimai işə və təşkilatçılıq fəaliyyətinə aid olan maraqları özündə birləşdirir. Bu maraq aktiv maraq adlanır. Aktiv maraq şəxsiyyətin inkişafını hərəkətə gətirən, onu oyadan zəruri cəhət kimi çox qiymətli olduğundan o, liderliyə aparan yolun başlanğıcıdır.

*Bugünkü cəmiyyətimizdə fərdi olaraq kişilərə bu və ya digər dərəcədə uduzan Qadınlarımız kollektiv olaraq liderliyi ələ almışlar. Qadınlarımız artıq həm ailədə, həm cəmiyyətdə liderlik etməkdədirlər. Belə ki, bu gün ali məktəb tələbələrinin (əlimizdə tam statistik məlumat olmasa da) 50%-dən çoxunu, orta məktəblərimizdə müəllim və tərbiyəçi olaraq çalışanların, bəlkə də 80%-ini, ali məktəb və elmi tədqiqat müəssisələrində çalışanların 50%-ini, tibb müəssisələrində çalışanların, bəlkə də 75%-ini, mədəniyyət sahəsində çalışanların böyük əksəriyyətini, kütləvi informasiya sahəsində çalışanların yarısını, ticarət müəssisələrində çalışanların 80%-ini, kənd təsərrüfatında çalışanların 60%-dən çoxunu, mövcud fabrik və zavodlarda çalışanların yarısını, qeyri-hökumət təşkilatlarında çalışanların yarıdan çoxunu Qadınlar təşkil edir...*

Bugünkü Azərbaycan ictimai və siyasi Qadın liderlərinin uğurlarının mənbələri, bizcə, aşağıdakılardır:

- Azərbaycan ictimai və siyasi Qadın liderləri elmli, savadlıdırlar.
- Onlar idarəetmənin pedaqogika və psixologiyasını elmi və nəzəri cəhətdən mənimsəmişlər. Əgər imkan yaradılarsa, onlar bütün sahələrdə bunları praktik şəkildə həyata keçirə bilərlər.
- Onlar bir rəhbər işçi kimi bütün sosial-psixoloji statusa malikdirlər.
- Onlar bir rəhbər kimi nüfuz və peşəkarlıq keyfiyyətinə malikdirlər.
- Onlar idarəetmədə bacarıq, iradə, temperament, xarakter və intellektual qabiliyyətə malikdirlər.
- Onlar rəhbərin şəxsiyyətini müəyyənləşdirən sosial, psixoloji və işgüzar keyfiyyətlərə malikdirlər.
- Onlar şüurlu nizam-intizama və mədəni-etik davranış vərdişlərinə sahibdirlər.
- Onlar qrup və təşkilatdaxili sosial gərginliklərin və münaqişələrin qarşısının alınması metodlarını bilirlər.
- Onlar əmək qruplarında, müəssisə və təşkilatlarda sosial gərginliklərin aradan qaldırılması texnikasına sahibdirlər.
- Onlar professional rəhbərlik və liderlik keyfiyyətlərinə malikdirlər.

Dünyanın məşhur tədqiqatçıları liderlərdə əsasən aşağıdakı keyfiyyətlərin olmasını zəruri sayırlar:

- ***Lider olma bacarığı və istəyi;***
- ***İnandırma qabiliyyəti və bacarığı;***
- ***Məqsədyönlülük;***
- ***Prinsipiallıq və qətiyyətlilik;***
- ***Risqə hazır olma;***
- ***İntizamlılıq;***
- ***Ədalətlilik;***
- ***İradəlilik, cəsurluq, dəyanətlilik;***
- ***Ağıl çevikliyi;***
- ***Vicdanlılıq, xeyirxahlıq, səmimilik;***
- ***İşgüzarlıq;***
- ***Soyuqqanlılıq, səbirlilik, dinləmə bacarığı;***
- ***Distansiya saxlama qabiliyyəti;***
- ***Rəhbərlik etdiyi qrup və ya təşkilatın fəaliyyətini koordinasiya etmə, qrup və ya təşkilatdaxili əlaqə yaratma qabiliyyəti;***
- ***Rəhbərlik etdiyi qrup və təşkilat üzvlərinin bilik, qabiliyyət və təşəbbüslərini qiymətləndirmə və üzvlərin səhvlərinə sanksiya tətbiq etmə bacarığı;***
- ***Qrup və ya təşkilata aid kommunikasiya üzərində nəzarət bacarığı.***

Bu göstərilən keyfiyyətlər subyektiv və abstrakt olmaqla bərabər, bir şəxsdə bunların hamısının mövcudluğu qeyri-mümkündür. İnsanın davranışındakı xarakterləri və yüzlərlə xüsusiyyətləri də bura əlavə etsək, lider seçimi məsələsi xeyli çətinləşər. Bu keyfiyyətlərin hamısı nəinki Qadınlarda, heç kişilərdə də bir yerə cəmləşə bilməz. Ona görə də göstərilən bu keyfiyyətlərin yarıdan çoxunu özündə cəmləşdirə bilən şəxs lider hesab oluna bilər.

Rəhbərlər emosional, ilhamverici və təşkilatçı olmaqla üç tipə bölünür. Bu hər üç tipi özündə birləşdirə bilən rəhbər lider adlanır. Lider öz üzərinə digərlərindən fərqli olaraq qrup və təşkilat vəzifələrinin yerinə yetirilməsi üçün böyük məsuliyyət götürənə deyilir. Bu anlamda lider daha mürəkkəb təbiətə malik olan insandır. O, konkret vəziyyətə, rəhbərlik etdiyi qrup və təşkilata uyğunlaşmağı bacarmalıdır.

***Siyasi və psixoloji ədəbiyyatda belə bir fikir təsdiqlənmişdir ki, hər hansı bir qrupun, təşkilatın rəsmi təşkili ilə bağlı rəhbər onların idarə olunmasının öhdəsindən o zaman gələ bilər ki, qrupun və təşkilatın bütün üzvləri onu lider kimi qəbul etsin. Əks təqdirdə o lider sayıla bilməz.***

***Liderin işinin səmərəliliyi onun öz işində haqqa, ədalətə, reallığa nə dərəcədə əməl etməsindən asılıdır.***

***Liderlik sənəti qrup və ya təşkilatda olan ayrı-ayrı rəhbərlərə söykənərək onların işini əlaqələndirmək, qrup və təşkilatın sabitliyini möhkəmləndirmək, fərdlərarası əlaqə və münasibətləri lazımi istiqamətə yönəltmək, təşkilat və qrupdaxili gərginliyi azaltmaq, ziddiyyətləri aradan qaldırmaq bacarığıdır.***

***Bütün bu qabiliyyət və bacarıqlar Azərbaycan Qadınında vardır. Sadəcə olaraq onlara lazımi şərait yaradılmalı və onlar da liderlik üçün şəxsi fəallıq göstərməlidirlər.***

Oxu, oxut, abunə ol!